Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 231
(4455) CÜMƏ AXŞAMI, 12 OKTYABR 2006-cı il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan.news.az | Qiyməti 20 qəpik (1000 AZM)


## Gürcüstanın birinci xanımı Təzəpir məscidində olmuşdur



Gürcüstan Prezidenti Mixail Saakaşvilinin xanımı Sandra Elizabet Rulofs oktyabrın 11-də Təzəpir məscidini ziyarət etmişdir.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə hörmətli qonağı və onun balaca oğlu Hikolası səmimi salamladı.

Sandra Elizabet Rulofs məscidin böyük namaz salonuna baxdı, müsəlman ayinləri ilə maraqlandı, məbədin divar naxışlarına tamaşa etdi.

Allahşükür Paşazadə mömin müsəlman Nabat xanımın vəsaiti ilə ötən əsrin əvvəllərində tikilən Təzəpir məscidinin tarixi barədə məlumat verdi və bildirdi ki, Nabat xanımın məzarı da elə məscidin həyətindədir. Şeyxülislam bildirdi ki, hazırda məscid bərpa olunur, əlavə korpuslar tikilir. Bu korpuslarda İslam Universiteti, şeyxin iqamətgahı, konfrans salonu yerləşəcəkdir.

Şeyxülislam Gürcüstanın birinci xanımını həyat yoldaşı Mixail Saakaşvili ilə birlikdə gəlməyə dəvət etdi, Gürcüstan Prezidentinə salamlarını yetirdi.

Sonda Sandra Elizabet Rulofsa xatirə hədiyyələri - müqəddəs Quran, namaz xalçası və suvenirlər təqdim edildi.

Qonaq burada xatirə şəkli çəkdirdi.

***AzərTAc***